# MAHİRƏ NAĞIQIZININ POETİK DÜNYASI

***Yeganə Qürbət qızı Qəhrəmanova***
*ADPU-nun Müasir Azərbaycan dili kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru.*
*Email: yegane.qehremanova.1976@mail.ru*
*https://orcid.org/0000-0003-3730-7674*

**Abstract:** Mahirə Nağıqızı müasir Azərbaycan poeziyasının özünəməxsus dəsti-xətti ilə seçilən, istər mövzu və məzmun, istərsə də poetik fitrıtinə görə fərqlənən söz sənətkarlarından biridir. Onun yaradıcılığında xüsusi rol oynayan şeirlərin dərin lirizmi, yüksək bədii-estetik və ictimai qayəsi vardır. Həssas şair qəlbinin duyğularını əks etdirən bu şeirlərdə güclü sevgi vardır. İstər qadın sevgisindən, istərsə də ana, övlad sevgisindən bəhs edərkən Mahirə Nağıqızının insanlığa, təbiətə sevgisi, ən əsası isə Vətən sevgisi açıq-aydın duyulur. Çünki Mahirə xanım bu şeirlərin hər birini hər birini ürəyinin, ruhunun ovqatıyla bəzəyir. Şeirlərində ana sevgisinin, övlad qayğısının, vətənə vurğunluğun fərqli bədii ifadəsi əks olunub. Onun üçün bu dünyada qiymətli nə varsa, oyun-oyuncaqdır, qiyməti-dəyəri ölçüləndir. Həyatda qiyməti tapılmayan bircə varlıq var ki, o da anadır: Əvəzi tapılmayan tək sərvət isə vətəndir.

**XÜLASƏ**
Məqalədə Mahirə Nağıqızının şeir yaradıcılığından, bu zəngin yaradıcılığın özünəməxsus xüsusiyyətlərindən bəhs olunur. Göstərilir ki, bu şeirlərdə şəxsi münasibətlərə ictimai məzmun verilməsi, obrazların hər birinin ictimai çalar, ictimai xarakter qazanması həmin şeirlərin bədii-ictimai dəyərini daha da artırır. Mahirə Nağıqızının yaradıcılığında hər bir insan ümumiləşmiş bir obraza çevrilir, Azərbaycan ailəsinin bir-birinə sevgi və ehtiram ruhunda böyüyən insanlarını yada salır. Oğluna ünvanladığı bir şeirində övladının simasında dövrün gənclərini doğru yola səsləyən, onların zamanla ayaqlaşmasını, öyüd-nəsihət anlamasını arzulayan müdrik bir obraz canlanır. Bu şeirlərdə həm də dərin vətən sevgisi, vətənin dərdlərinə həssas münasibət vardır.
**Açar sözlər:** şeir, ictimai, sevgi, vətən, ədəbiyyat

**SUMMARY**
The article discusses the poetic creativity of Mahira Naghigyzi and the unique features of this rich creativity. It is shown that in these poems, giving social content to personal relationships, and the acquisition of a social tone and character by each of the images further increases the artistic and social value of these poems. In Mahira Naghigyzi's creativity, each person becomes a generalized image, reminiscent of the people of the Azerbaijani family who grew up in the spirit of love and respect for each other. In a poem addressed to her son, a wise image comes to life in the face of her son, calling the youth of the era to the right path, wishing them to keep up with the times and understand the advice. These poems also contain deep love for the homeland and a sensitive attitude to the troubles of the homeland.
**Keywords**: poetry, social, love, homeland, literature

**Metod.** Məqalədə müqayisəli və təsviri metodlardan istifadə olunmuşdur

**Giriş**

Şeir, sənət, ədəbiyyat insanların yer üzündə yaratdığı ən böyük mənəvi sərvət kimi, cəmiyyətin ilkin yaranışından üzü bəri yol gəlir. İnsan övladı həyatı dərk edib digər varlıqlardan fərqlənməyə başladıqda bütün ali keyfiyyətləri ilə yanaşı, ən gözəl bədii-estetik dəyərə - şeir, sənət, ədəbiyyat yaratmaq gücünə də qadir olub. Min illərdən üzü bəri söz deyib, şeir qoşub, duyduğu, hiss etdiyi, təsirləndiyi canlı və cansız obyektləri bədii boyalarla əks etdirib. Dövr keçdikcə təbiət və cəmiyyət nə qədər inkişaf etsə də, insanların sözə, şeirə, sənətə olan mənəvi ehtiyacı, ruhi tələbatı azalmayıb ki, azalmayıb. Elə bu gün də bəşər övladı ən sevincli, ən kədərli anlarında sözə sığınır, onun gücünə, qüdrətinə güvənir; sözlə qəlbinin istəyini ifadə edir, sözlə ağrısına-acısına ovunur. Ona görə də şeir, sənət adamları daha çox həssas olur, başqalarının qəlbinə yol tapmağı bacarır. Belə həssas qəlbli qələm sahiblərimizdən biri də hər misrasından ruhunun səsi duyulan tanınmış şair, alim və ziyalı Mahirə Nağıqızıdır.

**Mahirə Nağıqızı şeirlərinin mövzu dairəsi**

Şeirlərində dərin bir dünya yaşadır Mahirə Nağıqızı - sevgi dünyası. Onun şeirlərinin sevgi dünyası o qədər geniş, o qədər əhatəlidir ki, bu dünyaya bütün sevgilər sığır: qadın sevgisi, övlad sevgisi, ana sevgisi, insanlığa, təviətə sevgi, ən əsası isə Vətən sevgisi. Mahirə xanım bu sevgilərin hər birini öz şeirlərində ustalıqla əks etdirməyi bacarır, hər birini ürəyinin, ruhunun ovqatına bürüyür. Onun şeirlərində eşqin, sevginin öz duyumu, öz izahı var:

Eşqsiz dünya həyan olmaz,
Olsa, sənə bəyan olmaz.
Günahını yuyan olmaz,
Duyan yarıyar, yarıyar.

Şairə görə, sevgi elə bir qüvvədir ki, sevən insanı ən dərin yaralar belə incitməz, dərdin ağrısını hiss etdirməz:

Dərdi para-para vursan,
Ağrı bilməz hara vursan.
Sevən dərin yara vursan,
"İncitmədi yaram",–deyər.

Sevgi insana dərdi-qəmi atdırar, arzulardan ev yaradar, qara günü ağ eləyər, sevənlərin ürəyini dağ eləyər:

Mənzil yolu addım-addım,
Qəmi atdım, dərdi atdım.
Arzulardan ev yaratdım,
Nə yaxşı ki, Sən varmışsan.

Qara günü ağ eylədin,
Bağça qurdun, bağ eylədin.
Mahirəni dağ eylədin,
Nə yaxşı ki, Sən varmışsan.

Mahirə Nağıqızının şeirlərində ana sevgisinin, anaya vurğunluğun fərqli bədii ifadəsi əks olunub. Onun üçün bu dünyada qiymətli nə varsa, oyun-oyuncaqdır, qiyməti-dəyəri ölçüləndir. Həyatda qiyməti tapılmayan bircə varlıq var ki, o da anadır:

Ay ana, bilirəm, bu kainatda,
Qiymətli nə varsa, oyun-oyuncaq.
Hər şeyin qiyməti olur həyatda,
Sənin qiymətini tapmadım ancaq!

Şeirlərinin birində anasını, onun əllərini vəsf eləyən şair özünəməxsus bədii boyalarla bu əllərin nələrə qadir olduğunu o qədər canlı, o qədər təbii ifadə edir ki, səhərdən axşama qədər dayanmadan işləyən, nə qədər zəhmət çəksə də, yorulmaq bilməyən, qabar tutmuş əlləriylə özünü bəxtəvər hesab edən fədakar bir ana obrazı canlanır gözlərimiz önündə. Bu ana yorulmaq, usanmaq bilmədən çalışır, ailəsi, övladları üçün gecəni-gündüzə qatır, bu qədər ağır yükə sinə gərsə də, doğmalarından təbəssümünü əskik etmir, yorğun gözləriylə hər zaman gülümsəyir:
O əllər su atıb ərin dalınca,
Ərin kürəyinə daş-divar olub.
Evdə ev işində, çöldə, bayırda,
Qabar tutsa belə baxtavar olub...

Yadımdan çıxmaz ki, hər səhər erkən,
Elə gəzinərdin evdə yavaşdan.
Nə cür çatdırırdın, deyə bilmərəm,
O boyda işləri durub o başdan...

Sənə açılan gün sənin deyildi,
Bizlə bölüşübsən lap əvvəlindən.
Necə saxlayırdın möcüzə idi,
Yorğun gözlərində təbəssümü sən?!
Bu ana zəhmətkeş olmaqla bərabər həm də vətənpərvərdir, hər sözünün başı da, gözlərinin yaşı da vətəndir. O, öz övladlarına mübariz olmağı, vətəni sevməyi, onu qorumağı öyrədir:

Hər sözün başı Vətən,
Gözünün yaşı Vətən.
Özü öyrədib mənə
Şimşək kimi çaxmağı.
Vətəni qorumağı.

M.Nağıqızı təkcə anasına deyil, digər ailə üzvlərinə: atasına, bacı-qardaşlarına, övladlarına, nəvələrinə də çoxsaylı şeirlər həsr etmiş, hər birini xarakterini, daxili aləminin zənginiyini vəsf etmişdir. Amma bu şeirlərin əsas özünəməxsus xüsusiyyəti bundan ibarətdir ki, onlarda şəxsi münasibətlərə ictimai məzmun verilir, obrazların hər biri ictimai çalar, ictimai xarakter qazanır. Hər bir doğma insan ümumiləşmiş bir obraza çevrilir, Azərbaycan ailəsinin bir-birinə sevgi və ehtiram ruhunda böyüyən insanlarını yada salır. Oğluna ünvanladığı bir şeirində övladının simasında dövrün gənclərini doğru yola səsləyən, onların zamanla ayaqlaşmasını, öyüd-nəsihət anlamasını arzulayan müdrik bir obraz canlanır nəzərlərimizdə:
Oğlum, doğruluğa yol tut, yol yeri!
Zamanla ayaqlaş, qalma sən geri!
Eşidib dinləsən, öyüd- nəsihət,

İtirib yol-izi azmazsan, əlbət!
Mahirə Nağıqızının şeirlərində dayısı - Azərbaycanın tanınmış ictimai-siyasi xadimi, vətənpərvər alim Həsən Mirzəyevin ruhuna hörmət, bu böyük şəxsiyyətə olan sonsuz sevgi də öz əksini tapır:
Bu ayları onsuz gördük deyilməz,
Üzbəüzdə Həsən Mirzə yaşayır.
O nə sirdir, nə hikmətdir, bilinməz,
Yüzə-yüzdə Həsən Mirzə yaşayır!
Mahirə Nağıqızı poeziyasında sevginin ən güclü tərənnümü Vətən mövzulu şeirlərdə əks olunub. Onun üçün vətən sevgisi bütün sevgilərin fövqündədir, ana sevgisi kimi əzizdir, doğmadır insana. Vətən siyasi cəhətdən konkret sərhədlərlə yer tapır, lakin bir vətəndaş, insan qəlbində Vətən və ona məhəbbət sonsuz, hüdudsüz, sərhədsizdir (Qasımov R, İsmayıl Z. 2022). Ona görə də yer üzündə vətənin sərhədləri bitsə də, şairin qəlbində vətənə məhəbbət, vətənin sərhədi bitmir ki, bitmir:
Bitər sərhədlərin bu yer üzündə,
Gəmisən, üzürsən eşq dənizində.
Sənə məhəbbətim, Vətən, bitmədi,
Qəlbimdə sərhədin nədən bitmədi?!
Mahirə Nağıqızı şeirlərində vətənin hər qarışına, onun gülünə-çiçəyinə sevgi duyulduğu, el-obanın sevinci, toyu-düyünü əks olunduğu kimi, dərdi-qəmi, ağrı-acısı da əks olunur. Vətənin gözünü yaşlı görmək şairin ən böyük qorxu, hürküsü, sinəsinin dağı ən böyük yükündür:

Gözünü ağlar görməyim,
Qorxumdu, hürkümdü, Vətən.
Sinəndə dağlar görməyim,
Dağ boyda yükümdü, Vətən.

Bu şeirlərdə özü cavan, yaşı qoca olan Azərbaycan Səməndər quşuna, şairin baş əydiyi Tanrıya bənzədilir, anasının dili ilə ona dualar oxunur:
Azərbaycan-
Nəsil-nəsil doğuluşum.
Küləndən yaranan,
Mənim Səməndər quşum.
Azərbaycan-
Xəzərin uca dalğası.
Min illərdir xalqımın
Yaşamaq qovğası.
Azərbaycan-
Baş əydiyim Tanrı.
Sənə kömək olsun,
Anamın duaları.
“Son döyüşə hazır ol” adlı şeirini oxuduqca bir yandan şair uzaqgörənliyi, digər tərəfdənsə şeirdəki geclü çağırış ruhu insanı riqqətə gətirir:
Azərbaycan əsgəri, yolun Şuşaya gedər,
O yürüşün naminə son döyüşə hazır ol!
İntizarda Laçındı, Zəngilandı, Kəlbəcər,
Pir görüşün naminə, son döyüşə hazır ol! (Nağıqızı M, 2022).

Mahirə Nağıqızı Azərbaycan əsgərinin qəhrəmanlığını, onun vətən sevgisini ən çox tərənnüm edən şairlərdəndir. Bu mövzulu neçə-neçə şeirlərinə mahnı bəstələnən şair 44 günlük Vətən müharibəsi zamanı da yorulmaq bilmədən zəfərimizi, oğullarımızın igidliyini tərənnüm etdi, torpaqlarımızın azadlığı uğrunda canından keçən qəhrəmanlarımıza şeirlər yazdı. “Şəhid nəğməsi” adlı şeirində “bir ocaqdan çıxıb Vətən ocağını qalayan” igidlərin dillərdə dastan olan şücaətini tərənnüm edən şair hər birimizi şəhid məzarları yanından asta keçməyə çağırır, sanki canlarını vətənə qurban verən oğulların ruhunu narahat etməkdən çəkinir:

Burdan yavaş gedin, astadan keçin,
Qəbirlər titrəyər, daş dinə bilər.
Bir güllə gücünə sakit olanlar
Bir addım səsinə diksinə bilər.

Boy vermiş məzarın qəbir daşları,
Bir ömrün daşlaşan arzu-kamıdır.
Onların sağlığı – döyüşən əsgər,
Məzarı – Vətənin istehkamıdır! (Nağıqızı M, 2022).

S.Əliyevanın qeyd etdiyi kimi, “M.Nağıqızının bədii əsərlərinin oxucu auditoriyası çox genişdir. Şeirləri istər gənc, istərsə də yaşlı nəsil tərəfindən sevilə-sevilə oxunur (Əliyeva, 2022).

**Nəticə**

Mahir Nağıqızı şair olmaqla bərabər həm də alim, ziyalıdır. Neçə-neçə tələbələr onun ziyasından bəhrələnir, elmin sirli qapılarını açmağa müvəffəq olur.

Mahirə xanım öz bədii-poetik istedadı ilə təkcə çalışdığı Azərbaycan Dövlət Pedaqoji Universitetində deyil, respublikamızda və onun hüdudlarından kənarda da tanınır və qəbul edilir. Onun ilham çeşməsi çoşub-çağlayır, vətənimizin günbəgün inkişaf edib çiçəklənməsi ruhunu yeni-yeni şeirlər yaratmaq həvəsinə bürüyür. Bu yolda şairə uğurlar, can sağlığı və yüksək ovqat diləyirik.

**Ədəbiyyat**

1. Nağıqızı M. Qarabağım – qan yaddaşım. Bakı: Qanun, 2022.
2. Nağıqızı M. Ana dilim – kimliyimdir. Bakı: Elm və Təhsil, 2020.
3. Həsənli, C. Müasir Azərbaycan poeziyasında vətənpərvərlik motivləri. Bakı: Elm, 2021.
4. Əliyeva, S. Milli poeziyada folklor motivləri. Bakı: Şərq-Qərb, 2019.
5. Qasımov R, İsmayıl Z. İki sahil.- Sözün daş nağılı və daş ağırlığı 2022.- 5 noyabr.- S.6.
6. Məmmədov, F. Modern poeziyada milli ideya. Bakı: Nurlar, 2020.
7. Məlikova, R. Qadın şairlərin yaradıcılığında vətən sevgisi. Gəncə: Elm, 2023.
8. Əliyeva, S. Mahirə Nağıqızı: Şəxsiyyət və istedad. “Kredo” 28.09.2022